***Yeganə ÇAĞLAYAN*** *
***Nazilə MƏMMƏDOVA*** *

# YAQUB MAHMUDOV MƏKTƏBİ "ORTA ƏSRLƏR" ANLAYIŞININ UNİVERSALLIĞININ TƏRƏFDARI KİMİ

Məlumdur ki, tarix elmində «istiqamət», «cərəyan», «məktəb» anlayışları ayrı-ayrı alimlərin fəaliyyəti ilə tarixşünaslıq elminin ümumi inkişaf prosesinin arasında vəsiləni müəyyən etmək üçün istifadə olunur. Vətən tarixşünaslığında bu anlayışların dəqiq təyini hələlik yoxdur və bu anlayışlara müvafiq ola biləcək tarixşünaslıq materialının təsnifatı da verilməmişdir. Amma hazırkı araşdırma bir alimin elmi fəaliyyətinə həsr olunduğu üçün, «istiqamət», «cərəyan», «məktəb» anlayışları altında nəyi nəzərdə tutduğumuzu, təbii ki, qeyd etməliyik. «Cərəyan» adı altında biz ən ümumi metodoloji prinsiplərlə birləşmiş və müxtəlif «istiqamət»ləri və «məktəb»ləri özündə birləşdirən geniş tarixçilər qrupunu nəzərdə tuturuq. Bu daha geniş məzmunlu anlayışdır və elmdə daha böyük bir hadisəni, bəzən böyük bir epoxanın, hətta bir neçə yüzilliyin tarixçilərinin fəaliyyətini ehtiva edir. «İstiqamət» deyərkən, biz yalnız ümumi metodologiya ilə deyil, həm də ümumi tematika və problematika ilə birləşmiş alimlərin kompakt qrupunu nəzərdə tuturuq. Hər hansı bir «istiqamət»in tarixçiləri eyni metodologiyada birləşdikləri üçün, araşdırmalarında adətən, eyni metodlardan da istifadə edirlər. Bu da xeyli böyük hadisə sayıla bilər və bir ölkənin və ya bir qurumun nəhəng tarixçi ordusunu özündə birləşdirə bilər.

«Məktəb» isə geniş «cərəyan»lardan və «istiqamət»lərdən şaxələnən bir qrup tarixçini birləşdirir. «Məktəb» anlayışı özü də kifayət qədər geniş anlayış olduğundan, bir çoxları tərəfindən «istiqamət» və «cərəyan»la qarışdırılır. «Məktəb» anlayışının konkret mənası – böyük, görkəmli bir tarixçinin ətrafında qruplaşmış tələbələrinin, yetirmələrinin və davamçılarının məcmusunu nəzərdə tutur. Bu qruplaşma həm metodoloji prinsiplərin ümumiliyi, həm də tarixi hadisələri anlama və ümumi təhlil xüsusiyyətlərinə görə seçilə bilər, elmdə ayrıca «cərəyan» da əmələ gətirə bilər. Əvvəlki iki hadisə ilə müqayisədə məktəb məhdud sayda tarixçini birləşdirsə də, məktəblər olmadan hər hansı bir cərəyan və ya istiqamətin uzun müddətli mövcudluğu da mümkün deyildir. Məhz məktəblər elmi istiqamətlərin və cərəyanların özəyini təşkil edirlər.

* **Yeganə Çağlayan** - Muş Alparslan Universitetinin dosenti
* **Nazilə Məmmədova** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

Azərbaycan tarix elmində belə məktəblər, təəssüflə etiraf edək ki, çox azdır. Bu, bir tərəfdən, Azərbaycan tarixşünaslığının uzun müddət sovet tarix elminin «əlavəsi» qismində çıxış etməsi ilə bağlıdırsa, digər tərəfdən, Azərbaycan tarix elminin özündə «inhisarçılıq» meyillərinin olması ilə əlaqələndirilməlidir. Belə ki, Azərbaycan tarixçiləri təxminən bir yüzillik ərzində marksist metodologiya ilə əsərlər yazmağa məcbur qalmış, müstəqil metodologiya və cərəyanların yaranması mümkün olmamışdır. Sovet ideologiyasının və marksist metodologiyanın təsirinə daha az məruz qalan yeganə sahə - qədim dünya və orta əsrlər tarixi olmuşdur ki, burada da, yuxarıda qeyd etdiyimiz «inhisarçılıq» meyilləri, bir dövrün və ya bir problemin yalnız bir alim tərəfindən araşdırılması və onun «inhisarı»na keçməsi halları məktəblərin yaranmasına mane olmuşdur.

Ona görə də Yaqub Mahmudov məktəbinin prinsiplərinin, metodlarının öyrənilməsi, başlıca istiqamətlərinin araşdırılması, bu məktəbin uğurlarının göstərilməsi Azərbaycan tarix elmi üçün aktualdır və tarixşünaslıq ənənələrini öyrənmək üçün vacibdir. Yaqub Mahmudov məktəbinin və başlıca istiqamətlərinin formalaşması 1960-cı illərdən başlayır; bu dövrdə alimin tədqiqatlarının və Azərbaycan tarixi üzrə yeni konsepsiyasının elmi ictimaiyyətə geniş şəkildə çatdırılması baş verir, onun ətrafında gənc alimlər və mütəxəssislər qruplaşır [5, 10-15]. Növbəti illərdə Yaqub Mahmudovun davamçılarının sayının artması ilə yanaşı, onun məktəbinin elmi istiqamət sahələri də genişlənir. 1990-cı illər Yaqub Mahmudov məktəbinin Azərbaycan və dünya tarix elmində nüfuzunun daha da yüksəlməsi, bu məktəbin xaricdə də nailiyyətlərinin artması dövrüdür.

Yaqub Mahmudov məktəbinin araşdırmalarının başlıca istiqamətləri – Azərbaycanın dövlətçilik tarixi və mədəni irsi, Azərbaycan dövlətlərinin xarici siyasəti və diplomatiya ənənələri, Azərbaycan tarixi üzrə mənbələr, tarixi şəxsiyyətlərin yeri və rolu, «itirilmiş torpaqlarımız»ın tarixi və ümumiyyətlə, sahib olduğumuz tariximizdir.

Yaqub Mahmudov məktəbinin metodologiyasına və prinsiplərinə gəlincə, onların əsasını, «kvintessensiyası»nı qərəzsiz, hər hansı bir siyasi təmayülsüz, obyektiv araşdırma metodları və heç şübhəsiz ki, Azərbaycançılıq ideyası təşkil edir. Azərbaycanın Manna dövlətindən başlayaraq XXI yüziliyə qədər gəlib çıxan böyük, şanlı, zəngin dövlətçilik tarixini araşdıran Yaqub Mahmudov, əslində, Azərbaycan tarixinin yeni konsepsiyasını təqdim etmişdir. Bu konsepsiya Azərbaycan xalqının unikallığı və təkrarsızlığı, geniş tarixi ərazidə yayılmaqla zəngin maddi və mənəvi mədəniyyətə, milli məfkurəyə və tarixi yaddaşa sahib olduğu faktına söykənir. Yaqub Mahmudov və onun məktəbi Azərbaycanın zəngin dövlətçilik tarixinin bütün mərhələlərini araşdırmaqla, əslində, Azərbaycan tarixinin milli konsepsiyasını təqdim etmişdir və bu konsepsiya Azərbaycan xalqının geniş tarixi ərazidə yayılmaqla zəngin maddi və mənəvi mədəniyyətə, milli məfkurəyə və tarixi yaddaşa sahib olduğu faktına söykənir. Bununla əlaqədar vurğulamaq istəyirik ki, Yaqub Mahmudovun milli təəssübkeşliyi heç zaman onun alim obyektivliyini üstələməmişdir. ona görə də onun və məktəbinin nümayəndələrinin tədqiqatları həm elmi ictimaiyyətin, həm geniş oxucu kütləsinin, həm siyasətçilərin nəzər-diqqətindədir.





Orta əsrlər tarixinin tədqiqinin və öyrənilməsinin dövlətçilik tarixi üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini Yaqub Mahmudov qədər yaxşı bilən yoxdur. Akademikin özünün qeyd etdiyi kimi, «xalqın əsrlərcə yaratdığı maddi və mənəvi mədəniyyət tarixinin böyük hissəsi orta əsrlərə düşür. Orta əsrlər tarixi sinfi mübarizə tarixinin maraqlı səhifələrini əhatə edir. Orta əsrləri öyrənmədən cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını dərk etmək qeyri-mümkündür. Məhz bu mənada orta əsrlər tarixinin öyrənilməsi nəzəri və təcrübi əhəmiyyətə malikdir. Bundan başqa, müasir dövrdəki hadisə və münasibətlərin bir çoxunun kökləri orta əsrlərdən başlanır. Müasir xalqların da xeyli hissəsinin təşəkkülü prosesi məhz orta əsrlərdə başa çatmışdı. Bir sıra dünya xalqları və dövlətləri isə orta əsrlərdə yaranmışdır» [12.].

Orta əsrlər tarixinin, demək olar ki, bütün problemləri ətrafında (məsələn, feodalizmin universallığı, xüsusi mülkiyyət, feodalizmin mənşəyi, sosial-sinfi mübarizə, şəhərlərin yaranması və s.) bu gün də tarixşünaslıqda elmi mübahisələr gedir. Bu, orta əsrlər tarixinin aktuallığını, onu öyrənməyin əhəmiyyətini aydın sübut edir. Ən böyük mübahisələrdən biri - «orta əsrlər» anlayışı və onun universallığı məsələsidir ki, Yaqub Mahmudovun davamçılarının bu məsələyə münasibəti Azərbaycan tarix elmində hökmran olan konsepsiyadan xeyli fərqlidir.

Məlum olduğu kimi, «orta əsrlər» anlayışı idrakın konkret-tarixi sahəsinə deyil, məntiqi sahəsinə aiddir; tarixi inkişafın müəyyən variantları əsasında yaranan bu anlayış sosial sistemin abstrakt obrazını təşkil edir [16, s.12]. Bütün tarix dərsliklərində də orta əsrlərin bu abstrakt obrazı əsas götürülür. Lakin həmin abstrakt obrazdan konkret materiala keçəndə, etiraf etmək lazım gəlir ki, «orta əsrlər»in təyini ziddiyyətlidir. Əvvəla, ona görə ki, bu təyin daha çox Qərbi Avropa ölkələri üçün nəzərdə tutulmuşdur. İkincisi, bizim orta əsrlər haqqında nəzəri təsəvvürlərimiz hələ də XVIII-XIX əsrlərin tarixşünaslığında bərqərar olmuş ümumiləşdirmələrə dayaqlanır, onların isə kökündə klassik feodal ölkəsi sayılan Fransanın (dəqiq desək, Şimali Fransanın) tarixi durur. Yəni, orta əsrlərin xarakteristikası daha çox *bir ölkənin* nümunəsində rast gələnən əlamətlərə söykənir. Bütün bu əlamətlər də *bir məntiqi sxemdə*, özünəməxsus *«model»də* cəmləndirilib. Şərq ölkələrində feodalizmin mövcudluğunu etiraf edən tarixçilər də həmin model üzərində çalışdığından, istər-istəməz qeyri-tipikliklə rastlaşırlar və «Şərq feodalizmi» anlayışından istifadə etməli olurlar.

Əlbəttə, elmdə ümumiləşdirmələr, abstraksiyalar, nəzəri modellər olmalıdır, elmi idrak onlarsız mümkün deyil. Lakin modeli müxtəlif hallara və şəraitə tətbiq edəndə, modellə reallıq arasında böyük uyğunsuzluqlar olmamalıdır. «Klassik feodalizm» modelini isə ən müxtəlif ölkələrə (biz heç Şərq ölkələrini deyil, eləcə Avropanın digər ölkələrini – İngiltərəni, İtaliyanı, Skandinaviya ölkələrini götürsək) tətbiq edəndə, həmin ölkələrdə feodalizmin «qeyri-tipikliyi», «inkişafdan qalması» üzə çıxır; ona görə də hər bir ölkənin ictimai quruluşunun dərin özünəməxsusluğu «qeyri-tipiklik» adı altında təqdim olunmağa başlanır.[1] Bu bir daha göstərir ki, tarixin mediyevistika sahəsi də «model»in reallıq ilə dolaşması təhlükəsindən qaça bilməmişdir; Fransa feodalizminin klassik olaraq götürülməsi isə məntiqi cəhətdən yararsızdır.

Azərbaycan tarix elmində, həm də təkcə ortaəsrşünaslıq elmində deyil, bu məsələyə bu və ya digər dərəcədə nəzər yetirilmişdir; ilk növbədə Azərbaycanın orta əsrlər tarixi ümumi tarixi qanunauyğunluqlar çərçivəsində araşdırılmışdır. Və burada da yuxarıda qeyd etdiyimiz metodoloji yanlışlıqlar qaçılmaz olmuşdur. Belə ki, Azərbaycan tarixinin dövrləşməsi üçün Avropa modeli əsas götürülmüş, Azərbaycanın orta əsrlər tarixi mexaniki şəkildə feodal üsul idarəsinin hökmran olduğu cəmiyyət kimi təqdim edilmişdir [1-3].

Azərbaycan tarix elmində ilk dəfə məhz Yaqub Mahmudov və onun davamçıları tərəfindən tarixi inkişafın müəyyən bir mərhələsi kimi «orta əsrlər»in universallığı aşağıdakı korrektə ilə mümkün sayılmışdır:

- feodalizmin konkret-tarixi variantlarının müxtəlifliyinin və mücərrəd modeldən kənara çıxma hallarının nəinki mümkünlüyü, eyni zamanda zəruriliyi qəbul edilməlidir;
- mərhələli inkişaf haqqında təsəvvürlər mövcud ictimai sistemin hər bir mərhələdə müxtəlifliyini qəbul etməlidir;
- tarixi proseslərin mərhələlərə bölünməsi prinsipi hər bir sivilizasiyanın, hər bir bölgənin, hər bir ölkənin uzunmüddətli təsirə malik amilləri (təbii-coğrafi şərait, etnogenezin və sosial psixologiyanın xüsusiyyətləri, din, icma tipi və s.) ilə əlaqədar cəhətlərini də nəzərə almalıdır [16, s.7, 17-18].

«Orta əsrlər»in iqtisadi xarakteristikasında da Yaqub Mahmudov məktəbi bu prinsiplərdən çıxış edir. Bu xarakteristikada diqqətin yönəlməli olduğu əsas məsələlər – *mülkiyyətin təbiəti, izafi məhsulun yaranması və təqsimi* məsələləridir. Aydındır ki, orta əsrlərdə, xüsusilə erkən orta əsrlərdə zənginliyin əsas mənbələrindən biri torpaq olmuşdur və iri mülkiyyət kimi torpaq - feodalların inhisarında idi. Feodal torpaq mülkiyyətinin vacib xüsusiyyətləri aşağıdakılar sayılır:

[1] Bəzi tarixçilər, hətta, Şərq ölkələri üçün onların inkişaf tarixində «Asiya İstehsalı Üsulu» (AİÜ) adlı xüsusi bir sistem də uydurmuşlar,





torpağın xırda istehsalçılar – kəndlilər tərəfindən becərilməsi; torpaq mülkiyyətinin siyasi hakimiyyətlə çulğaşması; feodal torpaq mülkiyyətinin şərti xarakter daşıması və əksər hallarda iyerarxik struktura malik olması; mülkiyyətin korporativliyi [16, s.17-18]. Bu amilləri universal saymaq olar.

Yaqub Mahmudov məktəbinin nümayəndələri avropasentristlərin feodalizmin əsas qanunu saydıqları *«Nulle terre sans seigneur»* (senyorsuz torpaq yoxdur) prisipini universal hesab etmirlər. Çünki bu tip ayrılma bir neçə qüsuru ilə özünü inkar edir: əvvəla, *«Nulle terre sans seigneur»* çox məhdud məna kəsb edən hüquqi düsturdur və yalnız Fransada yayılmışdır. İkinci bir tərəfdən, dövlətin ali mülkiyyətçisi olduğu torpaqlar da xırda kəndli təsərrüfatları ilə çulğaşırdı və üstəlik, əksər Asiya ölkələrində əmtəə-pul münasibətlərinin yüksək dərəcəsindən xəbər verən pul rentası üstünlük təşkil edirdi. Nəhayət, bir vacib amil də yaddan çıxmamalıdır ki, feodal mülkiyyəti təkcə torpaqla bağlı münasibətlərlə məhdudlaşmırdı; feodalizm inkişaf etdikcə, həm Avropanın, həm də Asiyanın iqtisadiyyatında sənətkarlıq böyük əhəmiyyət kəsb etməyə başlayır. Sənətkarlığın cəmləndiyi, izafi məhsulun toplanıb bölündüyü, mübadilənin baş verdiyi şəhər feodal cəmiyyətinin inkişaf perspektivini müəyyən edir. Ona görə də orta əsr cəmiyyətinin iqtisadi xarakteristikasında ikinci vacib məsələ – izafi məhsulun toplanması və təqsimi məsələsidir.

Dünya elmində qəbul olunmuş dövrləşməyə (şərti) görə, orta əsrlər tarixi V yüzilliyin ikinci yarısında (476-cı il) Qərbi Roma imperiyasının süqutu ilə başlayır. İki dünyanın – antik yunan-Roma və «barbar» (alman, kelt və türk) dünyaların toqquşması Avropanın tarixində dərin, kardinal bir dönüşün əsasını qoydu və onun tarixində yeni dönəm – orta əsrlər başladı. Bu yanaşma Azərbaycan ortaəsrşünaslığı üçün də səciyyəvidir.

Bu məsələyə münasibət Yaqub Mahmudovun tədqiqatlarında birmənalı deyil. Dövrləşmə ilə əlaqədar Yaqub Mahmudov özü yazır: «Feodalizm sisteminə keçid dünyanın hər yerində eyni zamanda baş verməmişdir. Çünki feodalizm cəmiyyəti üçün xarakterik münasibətlərin yaranması prosesi bütün ölkələrdə eyni sürətlə getmirdi. Feodal istehsal üsulunun tərəqqi və dağılması dövrləri də müxtəlif qitələrdə, hətta ayrı-ayrı ölkələrdə də müxtəlif vaxtlarda olmuşdur. Feodalizm cəmiyyəti bəzi xalqların tarixində nisbətən az, bəzilərinin tarixində isə çox davam etmişdir... Elə buna görə də dünya ölkələrinin orta əsrlər tarixini xronoloji cəhətdən vahid çərçivəyə salmaq mümkün deyildir. Feodal münasibətlərinin formalaşması Şərqdə daha tez – eramızın II əsrində başlamışdı. Məsələn, Çində eramızın III-IV yüzilliklərində, artıq feodal münasibətləri mövcud idi. Təqribən eyni dövrdə bəzi başqa Şərq ölkələrində də feodal münasibətləri inkişaf etməkdə idi. Ümumiyyətlə, dünya miqyasında eramızın VII əsrinədək qul-

darlıq münasibətləri hər yerdə, demək olar ki, süqut etmiş, həm Asiya, həm də Avropa miqyasında feodalizmin inkişafı üçün əlverişli şərait yaranmışdı. Bu mənada, şərti olaraq, III-VII yüzillikləri dünya tarixində orta əsrlər tarixinin başlanğıcı kimi qəbul etmək olar» [12, s.5].

Orta əsrlərin başlanğıc hüdudu kimi, onun son hüdudu da mediyevistikada mübahisə doğuran məsələlərdəndir. Yaqub Mahmudov yazır: «Başqa cəmiyyətlər kimi, feodalizm də yaranma, tərəqqi və dağılma dövrləri keçirmişdir. Bu dövrləri bir-birindən ayıran xronoloji sərhəd də bütün dünya ölkələri üçün eyni deyil. Məsələn, Çində erkən orta əsrlər dövrü VIII, Ön və Orta Asiya ölkələrində IX, Avropa ölkələrinin əksəriyyətində isə XI yüzilliyədək davam etmişdir. Feodalizmin tərəqqi və dağılma dövrünün də xronoloji çərçivəsi bütün ölkələr üçün eyni deyil. Bununla belə, artıq XV-XVI yüzilliklərdə bir çox Şərq ölkələrində və Avropa ölkələrinin əksəriyyətində feodal sisteminin dağılması prosesi başlanmışdı. Bu proses Avropadan fərqli olaraq bəzi Şərq ölkələrində uzun müddət – XIX yüzilliyin ortalarına qədər davam etmişdir... Ümumiyyətlə, orta əsrlər tarixinin dövrləşdirilməsi məsələsində az-çox sabit bölgü Avropa ölkələrinin tarixi üçün yaradılmışdır» [12, s.6].

Yaqub Mahmudov məktəbinin davamçıları son orta əsrlərin «Erkən Yeni dövr» adı altında təqdim edilməsinin tərəfdarıdır. Bu dövr orta əsrlər tarixinin XVI əsrin əvvəlindən XVII əsrin ortalarına qədərki çağını əhatə edir. Feodal sisteminin dağılması və kapitalist münasibətlərinin yaranmağa başlaması orta əsrlərin son dövrünün başlıca xüsusiyyətidir. Lakin Azərbaycanın bir qisim tarixçisindən fərqli olaraq, Yaqub Mahmudov məktəbi üçün Orta əsrləri Yeni dövrdən 1640-1660-cı illər İngiltərə inqilabı deyil, 1618-1648-ci illərdə baş vermiş və Ümumavropa əhəmiyyətli Otuzillik müharibə ayırır, çünki tarixi dövrləşməni sinfi mübarizə meyarı üzrə aparmaq sadəcə marksist metodologiya üçün səciyyəvi olmuşdur və müasir tarix elmi üçün məqbul deyil [12, s.7].

Bu gün Bakı Dövlət Universitetində Yaqub Mahmudovun rəhbərlik etdiyi «Qədim dünya və orta əsrlər tarixi» kafedrası Azərbaycanda ortaəsrşünaslığın (mediyevistikanın) yeganə, Qafqazda başlıca mərkəzidir. Fikrimizcə, Avropanın «Kembric məktəbi», «Xartiyalar məktəbi», «Karpov məktəbi», «Annallar məktəbi» qədər məşhur olan Yaqub Mahmudov məktəbi dünya mediyevistikasının da aparıcı mərkəzlərindəndir. Çünki bu mərkəzdə təkcə Azərbaycanın deyil, ümumilikdə Avropanın və Asiyanın tarixinin, Avropa-Asiya əlaqələrinin kompleks tədqiqi aparılır; bu mərkəzdə təkcə Şərq mənbələri deyil, Avropa mənbələri də öyrənilir və tədqiqata cəlb olunur. Kafedrada «Qədim Şərq tarixi», «Antik tarix», «Avropa ölkələrinin orta əsrlər tarixi», «Amerikanın qədim və orta əsrlər tarixi», «Sivilizasiyalar tarixi», «Qədim dövrün və orta əsrlərin beynəlxalq münasibətləri» fənləri tədris olunur. Magistratura pilləsi üzrə 24 kurs, o cümlədən «Avropa-Asiya qarşılıqlı əlaqələri və Azərbaycan», «Antik dünya və Azərbaycan», «Roma-Parfiya qarşıdurması və Azərbaycan», «Ağqoyunlular və Avropa», «Səfəvilər və Avropa» adlı kurslar üzrə mühazirələr oxunur.

Yaqub Mahmudov məktəbinin adıçəkilən problemlə bağlı prinsipial mövqeyi belədir: dünya xalqları müxtəlif yollarla inkişaf etmişlər və bu inkişafın sürəti də fərqli olmuşdur. Əslində, bu, təbiidir və *tarixi gedişin qeyri-bərabərliyi elə həmin tarixi inkişafın stimuludur.* Feodalizmin təşəkkülü və inkişafı təcrid olunmuş şəkildə deyil, qeyri-bərabər inkişaf səviyyəsi olan xalqların qarşılıqlı təsiri şəraitində getmişdir. Bu qarşılıqlı təsir adi bir yaxınlaşma və ünsiyyət deyil, bu, keyfiyyətcə yeni sistem doğuran sintezdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. Ən qədim dövrdən XX əsrin əvvəllərinə qədər (Akademik İ.H.Əliyevin red. ilə). Bakı, 1993
2. Azərbaycan tarixi. Ən qədim dövrdən 1917-ci ilədək (Z.M.Bünyadov və Y.M.Yusifovun red. ilə). Bakı, 1993
3. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər (S.M.Əliyarlının red. ilə). Bakı, 1996; Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı, "Elm", 1998
4. Gözəlova Y.H. Bir daha "klassik feodalizm" modeli haqqında // "Tarix və gerçəklik", Bakı. 2007, I-II cildlər
5. Mahmudov Y.M. Ağqoyunlu dövlətinin Venesiya ilə qarşılıqlı əlaqələri (XV əsrin 60-70-ci illəri): T.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1966
6. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, "Təhsil", 2006 – 426 s.
7. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, "Təhsil", 2005 – 136 s.
8. Mahmudov Y.M. Azərbaycan tarixi: İntibah dövrü. Bakı, "Altay dünyası" jurnalının nəşri, 1996 – 84 s.
9. Mahmudov Y.M. Azərbaycan tarixi: Erkən İntibah dövrü. Bakı, "Aspoliqraf", 2008 – 126 s.
10. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü. Bakı, ADU, 1986 – 96 s.
11. Mahmudov Y.M. Odlar Yurduna səyahət. Bakı, "Gənclik", 1980 – 120 s.
12. Mahmudov Y.M. Orta əsrlər tarixi. Bakı, "Təhsil", 2012 – 216 s.
13. Mahmudov Y.M. Öyrənilməmiş səhifələr. Bakı, Gənclik, 1972 – 101 s.
14. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, "Gənclik", 1977 – 140 s.
15. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, "Gənclik", 1985 – 88 s.; Bakı, "Təhsil", 2012 – 296 s.
16. История средних веков. Под ред. С.П.Карпова. Москва, МГУ, 2001, т.1 – 640 с.